# Mir Həmzə Nigari beynəlxalq simpoziumu

**_Bakı Dövlət Universitetində (BDU) təkkə-təsəvvüf ədəbiyyatının nümayəndəsi, sufi şairi, təsəvvüf alimi, nəqşibəndi şeyxi Mir Həmzə Mir Paşa oğlu Qarabaği Nigarinin fəlsəfəsinə və yaradıcılığına həsr olunmuş beynəlxalq simpozium keçirilib. BDU və Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin (TADİV) birgə təşkilatçılığı ilə keçirilən simpoziumda Türkiyə və Azərbaycanın dövlət və hökumət nümayəndələri, millət vəkilləri, mədəniyyət xadimləri, BDU-nun müəllim və tələbələri iştirak ediblər._**



Simpozium Azərbaycan və Türkiyə Respublikalarının Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. BDU-nun rektoru Elçin Babayev giriş sözü ilə çıxış edərək XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mir Həmzə Nigarinin poeziya və fəlsəfəsindən bəhs edib. Qeyd edib ki, onun Vətən eşqi, Vətənə bağlılığı Qarabağa həsr etdiyi şeirlərində daha qabarıq ifadə olunur. Şərqi Zəngəzur bölgəsində doğulan, lakin sonralar doğma yurdunu tərk edərək qardaş Türkiyədə məskunlaşmaq məcburiyyətində qalan Mir Həmzə Nigari əsərlərində öz yurduna həsrət və sevgisini daim ifadə edib.

"Qara bağrım Qarabağımdır" deyən, "Qarabağdan xəbər versə" küləklərə canını qurban etməyə hazır olan Nigari oranı dünyanın behişti adlandırır. Təsadüfi deyil ki, insanlar Qarabağ torpaqlarının işğal altında olduğu dövrlərdə bu şeirlərlə təsəlli tapıb, öz həsrətlərini ovundurmağa çalışıblar.

TADİV-in sədri, Türkiyə Respublikasının Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Aygün Attar çıxış edərək Seyid Nigarinin həyat və yaradıcılığı, fəlsəfəsi haqqında ətraflı məlumat verib.

Plenar iclasda Azərbaycan Respublikasının təhsil nazirinin müavini Firudin Qurbanov, mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Türkiyə Respublikasının Azərbaycandakı səfiri Cahid Bağçı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Mir Həmzə Seyid Nigari nəslinin davamçısı Mir Sədi Mirməhəmmədoğlu, Xalq şairi Nəriman Həsənzadə çıxış ediblər.

Beynəlxalq simpozium Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində Mir Həmzə Seyid Nigariyə həsr olunmuş konsert proqramı ilə başa çatıb.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 5 oktyabr.- S.11.